# Əlli yaşlı Saray

**...Altmışıncı illərdə rəsm müəllimimiz bizi Sumqayıtdan paytaxta ekskursiyaya gətirmişdi. Onda ilk dəfə Qız Qalasının başından şəhəri seyr etdik, muzeyləri gəzdik, yenicə istifadəyə verilmiş Bakı metrosuna enərək yerin altında şütüyən qırmızı qatara mindik. Geri qayıdan zaman hasara alınmış böyük bir ərazinin yanından keçdiyimizdə Müzəffər müəllimdən burada nə tikildiyini soruşdum. Dedi ki, böyük bir konsert salonu inşa edilir. Hazır olsun, bir dəfə də buraya gələrik.**






Həmin illərdə tikinti gecikdirildiyi üçün müəllimimiz vədinə əməl edə bilmədi.

Biz də oxuduğumuz səkkizillik məktəbi bitirib hərə bir yana dağılışdıq. Mən ali məktəbə daxil olandan sonra, nəhayət, saraydakı tədbirlərin birində iştirak etdim. Sarayın tamaşa zalının və foyelərinin genişliyi, tavan və divarların ətrafa saçılan gur işıqları nağıl aləmi kimi əsrarəngiz təsir bağışlayırdı. Orada öyrəndim ki, bu geniş səhnəli kinopanoram binasının yarımçıq qalan tikintisi 1969-cu ildə, Heydər Əliyev Azərbaycana rəhbər təyin olunandan sonra axıradək davam etdirilib.

Həmkarım, Əməkdar jurnalist Qüdrət Piriyev deyir ki, o vaxt təsadüfən sarayın yanından ötərkən Heydər Əliyevin tikintiyə rəhbərlik edən Nazirlər Soveti sədrinin müavini, bu sahədə peşəkar səriştəsi olan Əliş Ləmbəranski ilə oraya gəldiyini gördü. Respublika rəhbəri tikintiyə baxdı, fasadın yuxarısındakı gerbin və bərq vuran metal təbəqələrin hansı materialdan olduğunu soruşdu. Ləmbəranski: “Misdəndir”, – dedi. Onda Heydər Əliyev tikintinin rəhbərinə iradını bildirdi: “Bilmirsənmi, yağış yağan kimi bu mis təbəqələr qaralıb, ləkə-ləkə olacaq. Dəyişdirin”. Sonra dahi rəhbər meydanı gəzdi, inşaatçılara tapşırıq və tövsiyələr verdi. Beləcə, rəhbərin ən tanınmış mütəxəssislərə belə necə dərs verdiyinin şahidi olduq” . Sonra qısa vaxtda layihədə dəyişikliklər edildi və Sarayın tikintisi məhz ümummilli liderin diqqəti nəticəsində 2 ilə başa çatdı.

Sarayın bütün texniki avadanlığı – səhnənin qalxıb-enən döşəməsi, hər iki istiqamətdə hərəkət edən transportyor lenti xaricdən gətirilmişdi. Amerika, Kanada, həmçinin Yaponiyadan alınaraq quraşdırılmış işıq və səs texnikası konsert proqramının daha yüksək səviyyədə təşkilinə şərait yaradır, orada çıxış edən ən ünlü səhnə ustalarını da qane edirdi.

Bu əzəmətli mədəniyyət ocağının adı ilk dövrlərdə Lenin Sarayı adlanırdı. Sonra Respublika Sarayı, 10 mart 2004-cü ildən isə Heydər Əliyev Sarayı olub. Artıq orada tamaşaçısı və iştirakçısı olduğum tədbirlərin sayını itirmişəm. Zarafat deyil, 50 il ötür.

Ulu öndərin adını daşıyan bu Saray Bakının müasir memarlıq ansamblında öz yeri olan möhtəşəm məkan, ölkənin baş səhnəsi, əsas konsert salonudur. 2007-ci ildə Prezident sərəncamı ilə əsaslı təmirə dayandırılan Saray daha yaraşıqlı və gözoxşayan bir mədəniyyət məkanına çevrilib. Yarım əsrdir ki, mühüm ictimai-siyasi, mədəni-kütləvi tədbirlərə evsahibliyi edir, oradakı konsertlərə, yubileylərə gedən hər kəs özünü bir neçə saatlıq sırf qayğısız aləmdə, ahənrüba təsirli mədəni aurada hiss edir. Bu gün də qaynar həyatını yaşayan Heydər Əliyev Sarayı bakılıların ən sevimli ünvanlarındandır.

Sarayın səhnəsində uzun illər ərzində çıxış edən sənətkarların şəkilləri, foto arxivindən düzəldilmiş fotoqalereya keçirilmiş konsertlər barədə dolğun bilgilər verir. Özü də həmin fotoşəkillərin çoxu eksklüzivdir və ilk dəfə nümayiş etdirilir.

...Hər gün 50 yaşlı “həmişəcavan” sarayın yanından ötüb keçirəm. Unudulmaz dahi şəxsiyyətin – ulu öndərin əzəmətli abidəsinin fonunda daha da gözəl görünən Sarayın afişalarına baxıram. Əlvan lövhələr bu böyük sənət məbədinin bir gün belə boş qalmadığına dəlalət edir.

Ümummilli liderin ölməz xatirəsini yaşadan mötəbər ünvan öz missiyasını yerinə yetirməkdə, paytaxtımızın mədəniyyət “nəbz”ini tutmaqdadır.

**Əli NƏCƏFXANLI, “Xalq qəzeti”**